# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 474** **Bakı şəhəri, 6 noyabr 2018-ci il**

**“Ekoloji təmiz kənd təsərrüfatı və qida məhsullarının markalanması Qaydası”nın təsdiq edilməsi haqqında**

“Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1012-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 aprel tarixli 1923 nömrəli Fərmanının 1.4.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** “Ekoloji təmiz kənd təsərrüfatı və qida məhsullarının markalanması Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanunu ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 8 yanvar tarixli 5 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 201, № 3, maddə 311; 2016, № 5, maddə 955; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 30 avqust tarixli 367 nömrəli Qərarı) 1-ci hissəsindən “Ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının markalanması Qaydası”, ” sözləri çıxarılsın.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.cabmin.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***